# Sizi istədiyinizdən daha xeyirli bir şeyə yönəldimmi? Yatağınıza uzandıqda otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdu lilləh", otuz dörd dəfə "Allahu Əkbər" söyləyin və bu sizin üçün xidmətçidən daha xeyirlidir

Əlidən (Allah ondan razı olsun) belə rəvayət edilir: Fatimə (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və dəyirman daşından əlinə düşmüş izdən şikayətləndi və Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına bir qulun gəldiyi xəbəri ona çatmışdı. Lakin Fatimə Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun) tapmadı və bunu Aişəyə söylədi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) gəldikdə Aişə bunu ona xəbər verdi. (Əli) dedi: Biz çarpayımıza uzanmışdıq ki, o, yanımıza gəldi, biz ayağa qalxmaq istədikdə, O, “Yerinizdə oturun” dedi və gəlib aramızda əyləşdi, hətta mən onun ayaqlarının soyuqluğunu qarnımda hiss etdim. O, dedi: Sizi istədiyinizdən daha xeyirli bir şeyə yönəldimmi? Yatağınıza uzandıqda otuz üç dəfə "subhənallah", otuz üç dəfə "əlhəmdu lilləh", otuz dörd dəfə "Allahu Əkbər" söyləyin və bu sizin üçün xidmətçidən daha xeyirlidir."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) qızı Fatimə (Allah ondan razı olsun) dəyirman daşının üyütməyə görə əlində buraxdığı izdən şikayətləndi, ona görə də Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına əsir gəldikdə, ev işlərini görməsi üçün bu əsiri xidmətçi olaraq istəmək üçün onun yanına getdi. Lakin onu evində tapmadı və Aişəni (Allah ondan razı olsun) gördü və bu barədə ona danışdı. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) gələndə, Aişə Fatimənin (Allah onların hər ikisindən razı olsun) onun yanına ondan bir qulluqçu istəmək üçün gəldiyini xəbər verdi. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Fatimə və Əli (Allah onların hər ikisindən razı olsun) yatmağa hazırlaşarkən onların evinə gəldi və onların arasında əyləşdi, hətta Əli (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ayaqlarının soyuqluğunu qarnında hiss etdi. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Sizə verməyimi istədiyiniz xidmətçidən daha xeyirli olanını sizə öyrədimmi? Onlar: Bəli dedilər və o, (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Gecə yatmaq üçün yerinizə uzananda otuz dörd dəfə “Allahu Əkbər” deyərək təkbir gətirin, Otuz üç dəfə “subhənallah" deyərək Allahı təqdis edin, Və otuz üç dəfə “əlhəmdu lilləh" deyərək Allaha həmd edin; Bu zikr sizin üçün xidmətçidən daha xeyirlidir.